

# Erməni xislətinin dumanlı kölgələri
## (polemik əsintilər)

Sabir Arazlı Özgün

(əvvəli ötən sayımızda)

***O, 1978-ci ildə Sovet nümayəndə heyətinin tərkibində BMT-nin 33-cü sessiyasında iştirak edir və çıxışı zamanı deyir: 'Bu gün erməni xalqı, eləcə də Sovet İttifaqının bütün qardaş xalqları Cənubi Ermənistanın Rusiya tərkibinə qatılmasının ("köçürülməsinin" demir) 150 illiyini böyük təntənə ilə qeyd edir".***



Mən bu əlamətdar tarixin "bütün qardaş xalqların" bayram etdiyi qənaətində deyiləm, ancaq Ağdərədə 1828-ci ildə Marağadan Qarabağa ermənilərin köçürülməsinin 150 illiyi qeyd edildi. Bu faktdır. Hətta abidə də qoyuldu. Fəqət on il sonra "Qarabağ problemi" təzədən qabardılanda, "Marağa-150" yazısı həmin abidənin üstündən silindi.

Kirokasyan qeyd edir; İran şah rejiminin və Türkiyə sultanlığının əsarəti altında olan Cənubi Ermənistanın 1828-ci ildə üfüqlərindən azadlıq günəşi parladı. I Dünya müharibəsindən əvvəl, Türkiyədə 2 milyon 450 mindən artıq erməni əhalisi yaşamışdır, 1965-ci il məlumatına əsasən cəmi 33 mini qalmışdır.

Yeri gəlmişkən, müxtəlif mənbələrdə 1915-ci ilə qədərki dövrdə Türkiyədə yaşamış ermənilərin sayı gah 3 milyon 600 min, gah 2 milyon 200 min, gah da 1 milyon 750 min göstərilir. Ümumiyyətlə, 1912-1914-cü illərdə Türkiyənin 6 vilayətində erməni əhalisinin türklərdən və başqa millətlərdən daha çox olduğu iddia olunur; ermənilər - 38,8%, türklər 26,5%, digər xalqlar 15%. Yəni bilərəkdənmi, bilməyərəkdənmi özləri özlərini çaşdırırlar. Yaxud da; o, tez-tez belə ifadələr işlədir: Türkiyə Ermənistanı, Rusiya Ermənistanı, Cənubi Ermənistan, Qərbi Ermənistan... Həmçinin "İstanbul" əvəzinə hər yerdə "Konstantinopol", Ağrı əvəzinə Ararat, "farsların Şamaxı şəhəri" deyir. Və s.

Xatırladır, Amerika prezidenti R.Reyqan iki dəfə, -15 aprel 1980-ci ildə (prezident seçkiləri ərəfəsində) və birinci prezidentliyi dövründə, yəni 1981-ci ildə, "1915-ci ildə Türkiyədə erməni soyqırımı olmuşdur" ifadəsini işlətmişdir.

***Kirokasyan 'Hindistan xalqının milli azadlıq hərəkatının qəhrəmanlıq səhifələri" monoqrafiyasında xüsusi olaraq qeyd edir ki, Hindistan xalqının milli azadlıq mübarizəsində erməni azadlıq birliyinin yüksək rolu olmuşdur (Təbii ki, 'Ermənistan-Hindistan dostluğu"nun bu gün də davam etdiyi hər kəsə bəllidir).***

***Bu məqamda F.Engelsin bir fikrini xatırladım. O deyir ki, 'erməni qul və kənizləri, - Hindistanın məbədlərində xidmət edən dini rəqqasələr ilk fahişələr olmuşdur".***

***Erməni kimdir (yaxud, nədir)? Bu sualın cavabını K.N.Yüzbaşyan (yəni ermənin özü) dürüstcəsinə verir: 'Yüzilliklər boyu ermənilərin taleyini İran, Yunan-Roma xalqları arasındakı əlaqələr müəyyən edib".***

### Son olaraq

Ermənilərin əfsanəvi xalq qəhrəmanı hesab elədiyi, 1928-ci ildə Parisin Per-Lya-Şez qəbirsanlığında dəfn olunan, 1965-ci ildə Fransada, 1989-cu ildə Leninakanda heykəlləri qoyulan tayqulaq "general" Andranik Ozanyan deyir: "Türklərə göstərmək lazım idi ki, erməni əli silah tutmağı, erməni ürəyi öz hüquqlarını müdafiə etməyi və mübarizə aparmağı bacarır". Bacarırmı?.. 44 günlük Vətən müharibəsi göstərdi ki, "güvəndiyi dağlar" arxa durmadan hayların nə silah tutan əli, nə də mübarizə aparmağı bacaran ürəyi var. Böyük Zəfər bunun təsdiqidir. II Qarabağ müharibəsində şahidi olduq ki, zəncirlənsə də, qəfəsə salınıb məcbur edilsə də, erməni əli silah tutmağı bacarmır.

Hə, bir də; "Bu bir daha təkrar olunmamalıdır" kitabının 3-cü səhifəsində yazılıb: "müəllif S.Qazaryan Ermənistanın Qars şəhərində (hazırda Türkiyə ərasindədir) anadan olub".

Və yenə də; "Qermanskiye istoçniki o qenotside armyan" kitabının 356-cı səhifəsində qeyd olunur: "1918-ci il sentyabrın ortalarında Nuru paşanın (Ənvər paşanın qardaşı) komandanlığıyla müsavat-türk ordusu Bakını ələ keçirdilər. Şəhərin erməni əhalisinə görünməmiş işgəncələr verdilər. 30 mindən çox erməni öldürüldü..." – Şərhə ehtiyac yoxdur. Çünki tarix boyu ermənilər türkə elədiklərini türkün adına yamamağı, arxadan zərbə endirməyi necə məharətlə bacardığını əfsuslar olsun ki, ötən əsrin 90-cı illərindən üzü bəri bizlər də gördük və ağrısını bundan sonra da yaşayacağıq.

Daha bir əlavə; hayların fərziyyəsinə görə hələ II Əbdülhəmidin dövründə "ermənilərsiz Türkiyə" kompaniyası icra olunmuş, ölkədə kütləvi soyqırım və deportasiya həyata keçirilmişdir. "Ermənilərsiz Ermənistan!.. – Türkiyə hökuməti siyasətinin leytmotivi bundan ibarət idi" (s.284). Bu iddianın gerçək üzünü isə tam əksi olaraq 1988-ci ildə gördük, belə ki, "Türksüz Ermənistan" qərara alınaraq indiki Ermənistandan son nəfərinədək azərbaycanlılar dədə-baba torpaqlarından qovuldular. Türkiyənin özündə isə hələ də "soyqırıma məruz qalan" ermənilər yaşamaqdadırlar. Əcəba nədən?!

***Bir anlığa dayanır və fikirləşirəm; erməni bu cəfəng hədyanlarla, utanıb-qızarmadan, abır-həya etmədən rusu, firəngi qandıra bilər, bəs... özləri necə, inanırlarmı?!. Sözümün əvvəlində bunların halına acıdığımı dilə gətirmişdim, çünki xəstə təxəyyüllü bu millətin düçar olduğu mərəz elədir ki, bu dərdin davası yoxdur.***

***Xəritə ilə bağlı; sən demə Azərbaycanın və Gürcüstanın heç ərazisi yox imiş, Türkiyənin 7 vilayəti (hazırkı Ermənistan o əyalətlərdən biri qədər ola-olmaya) Qərbi Ermənistana məxsus ərazilər imiş... Vallahi malades!***

***Ona görə, ingilis səyyahı Vilson deyir ki, araqarışdıran ermənilər istənilən cəfəngiyyatı böyütməklə həyasız dərəcədə mahirdirlər.***

Ancaq... maraqlı cəhət odur ki, İranın hakimiyyət dairələrinin (mollaların) "Böyük Ermənistan" xəritəsindən xəbəri yoxdurmu? Axı Urmiya gölü, Təbriz, Ərdəbil də daxil olmaqla Güney Azərbaycanın bir hissəsi Cənubi Ermənistan kimi həmin xəritədə öz əksini tapıb?!. Onu qeyd edim ki, 1915-ci ildəki "Ermənistan ərazisiylə" hal-hazırda ali və orta məktəb proqramlarında tədris olunan tarix kitablarındakı "Böyük Ermənistan xəritəsi", eləcə də, çoxcildli ensiklopediya kitablarındakı "tarixi Ermənistan" xəritəsi bir-birinə uyğun gəlmir. "1915-ci il erməni soyqırımı" xəritəsində isə daha ciddi çaşbaşlıq var, belə ki, 1 mm diametrlə işarələndiyi əsasla götürəndə Türkiyə və Yaxın Şərqdə "soyqırıma məruz qalan" ermənilərin sayı hətta 3 milyondan da çoxdur (?!). Və... sən demə, hələ 1915-ci ildə Qarabağ, Naxçıxan, Qars və s. Ermənistanın tərkib hissəsi imiş (?!).

Hə, lap unutmuşdum; həmin xəritədə digər yurd adlarımız kimi Gəncənin də adı dəyişdirilərək Qandzak kimi qeyd olunub.

İstəkli oxucu! Osmanlı İmperiyası dövründə yüzlərlə erməni hakimiyyət dairələrində yüksək vəzifələrdə işləyirdilər. Hətta Qabriel Naratunkyan ölkənin xarici işlər naziri idi. Belə olduğu halda nədən Tanrıya təpik atırdılar?!. Yaxud özlərindən sonra gələn nəsillərə "türklərin nədən və hansı səbəbə görə erməniləri "qırdığını" heç izah edirlərmi?! Edirlərsə... necə izah edirlər?..

44 günlük Vətən müharibəsindən sonra yazmışam ki:

Bu son olacaqmı?! Yox, olmayacaq,
Bu elə yaradır illər keçsə də sağalmayacaq!

Ən nəhayət; əminəm ki, gün gələcək, qara buludlar Qarabağın səmasından çəkildiyi kimi, erməni xislətinin pozuq kölgələri də gün işığında belə görünməz olacaq. Necə deyərlər, örkən nə qədər uzun olsa da, yenə gəlib doğanaqdan keçəcək.

***XX əsrin sonlarından başlayaraq (zaman-zaman olduğu kimi) Azərbaycan xalqının büdrədiyi anlar olsa da, yenə dik durmağı bacardı. Əsil qəhrəmanlıq da elə budur, - Vətən büdrəyib silkələnsə də, yıxılmadı. Tarixin daha bir sınağından üzüağ çıxdı.***

***...Qarşımda dörd kitab var. "Ön söz əvəzi" yerində bu kitablardakı həqiqəti əks etdirməyən 'fakt'lardan hissəcikləri oxucu diqqətinə çatdırmağıma zərurət vardımı? Düşünürəm ki, vardı!..***

**28 fevral 2025**
**Xankəndi şəhəri**